Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Ankaranın Qarabağ fəallığının artmasına Rusiya da mane olmayacaq - Ermənistanda böyük əndişə...

**Məlum həqiqətdir ki, bu gün Cənubi Qafqazda hadisələrin inkişaf axarının müəyyən edilməsində Azərbaycan və Türkiyə faktorunun xüsusi çəkisi getdikcə artmaqdadır. Təbii ki, bu hal digər məqamlarla yanaşı, Dağlıq Qarabağ münaqişəsinin də gedişinə əhəmiyyətli dərəcədə təsir göstərmək iqtidarındadır.**

Elə işğalçı Ermənistanı narahat edən əsas məqamalardan biri də məhz budur.

Ermənistan Elmlər Akademiyasının Şərqşünaslıq İnsitutunun direktoru, türkoloq Ruben Safrastyan bildirir ki, hazırda Türkiyə Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqları həyata keçirən ATƏT-in Minsk Qrupunun tərkibinə daxil olmaq istəyir. Safrastyan qeyd edir ki, Türkiyə indiyə qədər buna dəfələrlə cəhd edib:"Lakin Ermənistanın qarşı çıxması bu cəhdlərin qarşısını alıb. Türkiyə Ermənistanın buna razı olmayacağını bilir, lakin bu istiqamətdə təşəbbüslərini davam etdirir. Ankara regionda əsas oyunçulardan biri kimi davranır və əsas hədəflərindən biri məhz Qarabağ münaqişəsinin həlli prosesində söz sahibi olmaqdır". Erməni ekspert etiraf edir ki, Bakı və Ankara öz maraqları fonunda olduqca ağıllı strategiya həyata keçirir. Bu xüsusda o vurğulayır ki, Ankaranın Moskva ilə münasibətlərini yenidən normal məcraya qaytarması da Türkiyənin Qarabağ məsələsində təsirlərini artırmaq imkanı yaradır. Digər erməni şərqşünas ekspert Hayk Qabrielyan da eyni mövqeni bölüşür:"Türkiyə tərəfinin Qarabağla bağlı yüksək səviyyəli son bəyanatları əvvəlki illərin bəyanatlarından müəyyən qədər fərqlənir". Onun sözlərinə görə, Türkiyənin son bəyanatlarında Qarabağ probleminin onun da problemi olduğu vurğulanır: "Türkiyə Azərbaycan üzərində, Rusiya da Ermənistan üzərində təsirə malik olduğunu vurğulayır, buna görə də səylərin birləşəcəyi halında Rusiya və Türkiyə nəticələr əldə edə bilər. Başqa cür desək, əməkdaşlığın "Suriya modeli" təklif olunur. Türkiyə son bəyanatları ilə vurğulayır ki, Qarabağ problemi onun da problemidir, yeni qeyd edilən problemin həllinə aktiv şəkildə müdaxilə etmək səlahiyyəti var. Bu bəyanatlar bizim üçün narahatlıqvericidir. İkincisi, Türkiyə Rusiyanı bu problem ətrafında razılaşmaya dəvət etməyə başlayıb və qeyd edib ki, Rusiya malik olduğu təsiri istifadə etməlidir".

Başqa bir erməni ekspert Baqrat Estukyan da bu fikirdədir və o, Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu ilə ATƏT-in Minsk Qrupu həmsədrlərinin son görüşünün bu mənada təsadüfi xarakter daşımadığını qeyd edir:"Bu təhlükəli addımdır, çünki Türkiyə Dağlıq Qarabağ probleminin nizama salınması prosesində heç vaxt tərəfsiz ola bilməz. Amma Türkiyə Qarabağ münaqişəsinin nizama salınması prosesinə cəlb olunmaq məsələsində dəstək ala bilər. Xüsusən də Rusiyadan. Türkiyənin bu mənada bəzi əsasları var. Digər tərəfdən unutmaq olmaz ki, beynəlxalq ictimaiyyət bir neçə dəfə Azərbaycanın ərazi bütövlüyü barədə bəyanat verib". Daha əvvəl "Vahid Ermənistan" partiyasının rəhbəri Artur Qazinyan da belə bir açıqlama ilə çıxış etmişdi ki, Azərbaycanla Türkiyə Ankaranın Qarabağ münaqişəsinin nizama salınması prosesində daha aktiv rol oynaması məsələsində səy və resursunu əsirgəməyib. O, xüsusilə qeyd edib ki, ATƏT-in Minsk Qrupu həmsədrlərinin Türkiyənin xarici işlər naziri ilə görüşünü erməni diplomatiyasının ciddi uğursuzluğu hesab edir: "Suriyanın şimalında vəziyyətin gərginliyi fonunda Türkiyə geosiyasi proseslərdə regional iştirakını genişləndirərək Qarabağı Yaxın Şərq dolaşığının tənzimlənməsi gündəminə daxil etməyə çalışır. Bizi çox çətin zamanlar gözləyir. Türkiyə istəyinə nail olmaq üçün Kremldən də istifadə etməyə çalışır".

Qeyd edilənlər fonunda o da məlumdur ki, əslində, Qarabağ münaqişəsinin həlli istaqmətində müəyyən irəliləyiş əldə etmək üçün vasitəçilik formatında yeniliklər olması artıq zəruri haldır. çünki Ermənistanın mövqeyi üzündən Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həlli, belə demək olarsa, dondurulub və ekspertlər hesab edir ki, vasitəçilik missiyası formatını dəyişmək lazımdır. Elə bununla bağlı olaraq vaxtaşırı yeni vasitəçi ölkələr qismində Minsk Qrupunun tərkibinə Türkiyənin əlavə olunması haqqında fikirlər səslənir. Çünki Türkiyə bu məsələdə müsbət rol oynaya bilər. Eləcə də, münaqişənin həlli üçün indi yeni təsirli format kimi Rusiya-Türkiyə ikiliyinin çıxış edə biləcəyi də ekspert dairələrində geniş qəbul olunur. Rus politoloq Aleksandr Sotniçenko məhz bu xüsusda xatırladır ki, Azərbaycan tərəfi ATƏT-in Minsk Qrupunun dəstəklədiyi Dağlıq Qarabağ münaqişəsinin "dondurulmuş formatından" çox narazıdır: "Həmsədrlər tərkibinə Azərbaycanın müttəfiqi kimi Türkiyənin daxil edilməsi Minsk Qrupu vasitəçilər formatını daha dinamik edə bilərdi". Eləcə də, iki güclü regional oyunçu kimi Rusiya və Türkiyənin əməkdaşlığı uzunmüddətli perspektivdə Dağlıq Qarabağ münaqişəsinin həllinə kömək etmək iqtidarındadır. Erməni hərbi ekspert Karen Veranyan bu xüsusda qeyd edir ki, Ankara öz işini ehtiyatlı tutur:"Ankara Moskva ilə münasibətləri fonunda Qarabağ məsələsində aktiv rol oynmağa çalışır. Bakı da Qarabağ məsələsini öz maraqlarına uyğun şəkildə həll etmək üçün Türkiyə vasitəsilə Rusiyaya təzyiq göstərməyə cəhd edir. Prosesə daha fəal qoşulduqdan sonra Türkiyə antierməni məntiqində fəaliyyətini dah ada genişləndirəcək. Bu, ilk növbədə qardaş ölkə olan Azərbaycanla ümumi strategiyadır və bu strategiya Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü kontekstində həll edilməli olduğunu nəzərdə tutur. Təsadüfi deyil ki, Bakıda son Ərdoğan-Əliyev görüşündən sonra Çavuşoğlu Minsk Qrupunun həmsədrləri ilə görüşüb. Bu bir daha bu məntiqi vurğulayır ki, Azərbaycan və Türkiyə eyni əlyazmaya sahibdir".

Bununla yanaşı, ekspert dairələrində belə fikirlər də səslənir ki, Ankara Qarabağ məsələsinin həllində fəal iştirak etmək istədiyi təqdirdə Rusiyanın buna ciddi müqavimət göstərməsi də gözlənilmir. Əksinə, Kreml Türkiyə ilə işbirliyi şəraitində bu məsələnin artıq həllində müəyyən nailiyyətlərin olmasında maraqlıdır. Regionun digər vacib oyunçusu sayılan ABŞ-ın da prosesə hansısa ciddi müqavimət göstərməsi istisna olunur. Çünki ABŞ üçün Ermənistanla müqayisədə Azərbaycan və Türkiyə daha vacib ölkə sayılır. Elə erməni amerikaşünas politoloq Suren Sarkisyan da məsələyə məhz bu prizmadan yanaşır. O, Konqresdə erməni lobbisinin mövqeyinin zəifləməsini də bu amillə izah edir: "Birləşmiş Ştatlar Konqresinin erməni məsələləri üzrə komissiyasının həmsədri, konqresmen Frenk Pallone Azərbaycana hərbi yardımı dayandırmağı təklif edib və Ermənistana böyük yardım etməyə çağırış edib. Amma lobbiçi strukturlar nə qədər güclü iş həyata keçirsə də, Birləşmiş Ştatlar həmişə öz marağını rəhbər tutduğunu bir daha göstərdi. Son parlaq nümunəni - prezident Obama və yəhudi lobbiçiləri, yaxud hətta yəhudi dövləti arasında İranın nüvə proqramı ilə bağlı yaranmış problemi unutmayaq. Demək istəyirəm ki, Birləşmiş Ştatlar hər zaman öz milli maraqlarını rəhbər tutur, Azərbaycana yardım etmək məqsədi varsa və bu məqsəd məhz hərbi sahədə əməkdaşlıq barədədirsə, hansısa lobbiçi qrup hər hansı formada Birləşmiş Ştatlara mane ola, öz milli təhlükəsizliyi və dövlət maraqlarından irəli gələn addımları ata bilməz". Sarkisyanın sözlərinə görə, təşəbbüs olduqca vacibdir, lakin Azərbaycan ABŞ üçün prinsipial əhəmiyyətə malik dövlətdir:"Azərbaycan Birləşmiş Ştatlara müxtəlif istiqamətlərdə ciddi dəstək nümayiş etdirir. Aydındır ki, nə qədər lobbiçilik işi həyata keçirilsə də, Azərbaycana verilən yardım azaldılmayacaq və ya sıfırlaşmayacaq, çünki aşkar Amerika marağı var. Lobbiçilərimiz bunun, ən azından, Ermənistana verilən yardımla bərabərləşməsi üçün işləməlidirlər. Amma bu da çətinləşib. Türkiyə və Azərbaycanın mövqeyi artıq burada öz sözünü deyir. Təbii ki, bu şəraitdə Ankaranın Qarabağ məsələsində fəallığına da ABŞ hansısa manəə yaratmayacaq".

Digər tərəfdən məsələnin başqa bir önəmli tərəfi də var. Məlumdur ki, Türkiyənin Suriyada həyata keçirdiyi uğurlu hərbi əməliyyat bu ölkənin bölgədə rolunu və çəkisini artırıb. Ancaq Türkiyə bununla kifayətlənmək istəmir. Ankara son zamanlar strateji müttəfiqlərinin və tərəfdaşlarının çağırışlarına səssiz qalmır, dəstək verir. Məsələn, Türkiyə Liviyadakı müttəfiqi olan mərkəzi hakimiyyətin xahişilə Tripoliyə silahlı qüvvələrini göndərib.

Azərbaycan Türkiyəyə Liviyadan da yaxın müttəfiqdir. Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycana səfəri zamanı bunu bir daha səsləndirdi və xüsusilə vurğuladı ki, Dağlıq Qarabağ probleminin həllində rəsmi Bakının yanındadır. Bu isə o deməkdir ki, Bakının çağrışı ilə Ankara Qarabağ məsələsinin həllində daha aktiv rol sahibi kimi çıxış edə bilər. Türkiyənin indiyə qədər Dağlıq Qarabağ münaqişəsinin həllində fəallığına mane olan qüvvələr isə aradan qalxır. Söhbət burada ilk olaraq Rusiya amilindən gedir. Amma Kremlin artıq məsələyə baxışı, yuxarıda qeyd olunduğu kimi, dəyişir. Azərbaycan isə dəfələrlə Türkiyənin Dağlıq Qarabağ münaqişəsinin həllində fəal tərəf qismində görmək istədyini bəyan edib. Bütün bunlar, Ermənistanın narahatlığına baxmayaraq, Türkiyənin yaxın perspektivdə Qarabağ məsələsinin çözümündə daha fəal rol oynaya biləcəyini istisna etmir.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**